**Gasimzade I.I.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.24-32**
**UDC: 342.7**

## International legal bases of compensation for human rights violations

**Abstract:** In the current situation, the provision and protection of human rights, which are an important and integral part of universal culture, is considered one of the main global problems.

According to the concept of international protection of human rights, states must ensure the internationally recognized rights and freedoms of every person within their powers. Legal and arbitrary interference shall not be allowed, and in the event of a violation, ensuring the fair compensation of the damage caused, as well as the obligations of eliminating all other negative consequences of the violation.

**Keywords:** human rights; material damage; moral damage; case-law; honor; dignity and business reputation; torture, restitution; compensation.

## References

1. Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan "On the experience of applying the legislation on the compensation of moral damages by the courts" dated November 3, 2008. Available at: https://e-qanun.az/framework/16647 (in Azerbaijani).

2. Charter of the United Nations, San Francisco, California, USA 1945. Available at: https://az.wikipedia.org/wiki/Birləşmiş_Millətlər_Təşkilatının_ Nizamnaməsi (in Azerbaijani).

3. International Covenant on Civil and Political Rights and two Optional Protocols attached thereto, 1966. Available at: https://migration.gov.az/content/pdf/5acb034968016_ Mülki%20və%20siyasi%20hüquqlar%20haqqında%20Pakt.pdf (in Azerbaijani).

4. InternationalCovenant on Economic, Social and CulturalRights, 1966. Available at: https://migration.gov.az/content/pdf/5acb034968016_Mülki%20və%20siyasi%20hüquqlar%20haqqında%20Pakt.pdf (in Azerbaijani).

5. International Convention on the Elimination of All Forms of Racial Discrimination, 1965. Available at: https://migration.gov.az/content/pdf/5acb15696665f_İrqi%20ayriseçkilik.pdf (in Azerbaijani).

6. Convention on the Elimination of All Forms of Discrimination Against Women, 1979. Available at: https://www.coe.int/az/web/compass/convention-on-the-elimination-of-racism-and-discrimination (in Azerbaijani).

7. Convention against Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment, 1948. Available at: https://e-qanun.az/framework/16054 (in Azerbaijani).

8. The UN Convention on Combating Corruption, 2003. Available at: https://www.un.org/ru/documents/decl_conv/conventions/corruption.shtml (in Russian).

9. European Convention on the Protection of Human Rights and Fundamental Freedoms, 1950. Available at: https://e-qanun.az/framework/1405 (in Azerbaijani).

♦**Gasimzade Ilknur Ilkin** - graduate student of the "Law" Department of the National Aviation Academy (Azerbaijan). E-mail: ilknur.agayeva@bk.ru

10. American Human Rights Convention, 1950. Available at: http://hrlibrary.umn.edu/russian/instree/Rzoas3con.html (in Russian).

11. Convention No. 169 of 1989 concerning Indigenous and Tribal Peoples in Independent Countries. Available at: https://www.un.org/ru/documents/decl_conv/conventions/iol169.shtml (in Russian).

12. Optional Protocol on Child Trafficking, Child Prostitution and Child Pornography. Adoptedin 2000. Available at: https://e-qanun.az/framework/1572 (in Azerbaijani).

**Qasımzadə İ.İ.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.24-32**
**UOT: 342.7**

## İnsan hüquqlarının pozulmasına görə zərərin ödənilməsinin beynəlxalq hüquqi əsasları

**Xülasə:** Mövcud olan vəziyyətdə ümumbəşəri mədəniyyətin mühüm, həmçinin ayrılmayan tərkib hissəsi olan insan hüquqlarının təmin olunması və müdafiəsi əsas qlobal problemlərdən biri sayılır. Onu tam formada dərk etmədən,öyrənmədən mürəkkəb siyasi,sosial-psixoloji,sosial-iqtisadi həmçinin beynəlxalq münasibətlər sistemini düzgün qiymətləndirmək mümkün deyil.

İnsan hüquqlarının beynəlxalq müdafiəsi konsepsiyasına uyğun olaraq,dövlətlər onların səlahiyyətləri həddində hər bir şəxsin beynəlxalq səviyyədə tanınan hüquq, həmçinin azadlıqlarını təmin etməlidirlər. İnsan hüquqlarını həyata keçirmək öhdəliyi dedikdə insan hüquqlarının pozulmasına yol verməmək, insan hüquqlarına hörmət etmək, yəni bu hüquqların təmin edilməsi zamanı qeyri-qanuni və özbaşına müdaxiləyə yol verilməməsi, pozuntuya yol verilən zaman isə vurulan zərərin ədalətli formada ödənilməsinin təmin edilməsi, həmçinin pozuntunun bütün digər neqativ nəticələrinin aradan qaldırılması öhdəlikləri nəzərdə tutulur.

**Açar sözlər:** insan hüquqları; maddi zərər; mənəvi zərər; presedent hüququ; şərəf; ləyaqət və işgüzar nüfuz; işgəncə; restitusiya; kompensasiya.

İnsan hüquqlarının müdafiəsi ideyası dövlətdaxili hüququn məhsulu kimi formalaşmışdır. İnsan hüquqlarının müdafiəsi ideyası deyildikdə istənilən şəxsin yalnız insan olduğu üçün məhz doğulduğu vaxtdan ondan ayrılmaz hüquqlara sahib olması, həmçinin dövlətin bərabər əsaslarla heç bir ayrı-seçkiliyə məruz qalmadan həmin hüquqları qanunvericilikdə və praktikada təmin etməsi nəzərdə tutulur.Ancaq ikinci dünya müharibəsi dövründə törədilən ağlasığmaz vəhşiliklər "dövlətdaxili normalar insan hüquqlarının tənzimlənməsində effektli vasitədir" prinsipinin əsaslı formada dəyişilməsinə səbəb oldu. İnsan hüquqları ideyası ikinci dünya müharibəsindən sonrakı vaxtda beynəlxalq səviyyə həddinə gəlib çıxmış,həmçinin dövlətlərin müvafiq öhdəlikləri formasında təsbit edilmişdir.

Əgər insan hüquq və azadlıqlarının pozulmasının nəticəsi olaraq şəxsə vurulan maddi və yaxud mənəvi zərərin ödənilməsi üçün kifayət qədər səmərəli hüquq müdafiə vasitəsi mövcud

♦**Qasımzadə İlknur İlkin qızı** – Milli Avaiasiya akademiyasının "Hüquq" kafedrasının magistrantı (Azərbaycan). E-mail: ilknur.agayeva@bk.ru

deyilsə, bunun nəticəsi olaraq zərər ödənilmir, yəni pozuntu aradan qaldırılmır, bir sözlə, pozulmuş insan hüququ bərpa olunmur. Bu hal isə onu deməyə əsas verir ki, həmin ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi ilə bağlı əsaslı problemlər mövcuddur. Bütün bunlardan aydın olur ki, insan hüquqlarının ölkə ərazisində hansı səviyyədə müdafiə olunduğunun mühüm göstəricilərdən biri insan hüquqlarının pozulmasının nəticəsi olaraq vurulan zərərin ödənilməsi məsələsinin ölkə qanunvericiliyində, həmçinin milli orqanlarının təcrübəsində hansı üsulla həll edilməsidir. Buna uyğun olaraq demək olar ki, insan hüquqlarının pozulması ilə bağlı olaraq yaranan zərərin xarakteri, hesablanması, həmçinin ödənilməsi qaydası ilə əlaqədar unikal və zəngin təcrübəyə malik olan Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tam formada araşdırılmasına ciddi ehtiyac yaranır.

Qeyd olunmalıdır ki, Avropa İnsan Hüquqları Məhkəməsi Avropada, hətta dünyada insan hüquqlarının inkişafına geniş və əhatəli formada öz töhfələrini vermiş, Avropa ölkələrində insan hüquqlarının müdafiəsi ilə əlaqədar eyni standartların təşkil edilməsi üçün mühüm rol oynayır.

Bizə aydındır ki, Avropa İnsan Hüquqları Məhkəməsinin qəbul etdiyi qərarlar məcburi xarakter daşımaqla yanaşı mütləq formada icra edilməlidir. Həmin qərarların icra edilməməsi və yaxud lazımi formada icra edilməməsi dövlətin bir sıra sanksiyalarla üzləşməsi ilə bərabər,onun demokratik imicinə ciddi şəkildə xələl gəlməsinə səbəb olur. Xüsusən qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Avropa İnsan Hüquqları Konvensiyasına, həmçinin onun protokollarına qoşulmasından sonra insan hüquqlarının müdafiəsinə aid beynəlxalq hüquq normalarının ölkə məhkəmələri tərəfindən tətbiq edilməsi məsələsi xüsusi formada aktuallıq kəsb edir. Bu konvensiya və protokollar Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsas tərkib hissəsini təşkil edir,buna görə də məhkəmələr tərəfindən birbaşa tətbiq olunmalıdır. Məhkəmələr insan hüquqları ilə əlaqədar işlərə baxarkən Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququndan səmərəli formada istifadə etməlidirlər.

Azərbaycan Respublikasının vətəndaşlarının öz hüquqları, habelə qanuni mənafelərinin müdafiəsi ilə bağlı milli məhkəmə orqanlarına, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətlərində son illər ərzində kifayət dərəcədə artım müəyyən edilmişdir. Məhkəmələr, əsasən, şəxsin şərəf və ləyaqətinin, şəxsi qeyri-əmlak hüquqlarının və mənəvi maraqlarının müdafiəsi ilə əlaqədar iddialara tez-tez baxırlar. Məhkəmə təcrübəsinin araşdırılmasının nəticəsi göstərir ki, qanunvericiliyimizdə mənəvi zərərin anlayışının,tətbiqi əsaslarının və hesablanma qaydasının müəyyən olunmaması belə iddialar ilə bağlı olaraq qərarlar qəbul edilməsində bir sıra problemlərin yaranmasına səbəb olur. Elə bu problemlərin həll edilməsi ilə bağlı olaraq Azərbaycan Respublikası Ali Məhkəmənin Plenumu 3 noyabr 2008-ci il tarixli “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” xüsusi qərar qəbul etməli olmuşdur.

“Əsas insan hüquqlarına,insan şəxsiyyətinin ləyaqət və dəyərinə,kişi və qadınların,böyük və kiçik millətlərin hüquq və bərabərliyinə inamın yenidən təsdiq edilməsi” preambulası ilə başlayan Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi indiki dövrdə insan hüquqlarının müdafiəsində xüsusi əhəmiyyət kəsb edir. Azadlıq, həmçinin insan hüquqlarına hörmət edilməsi şərti ilə beynəlxalq əməkdaşlığa müvəffəq olmaq BMT-nin elə əsas məqsədlərindən biri hesab olunur. Bu məqsədə müvəffəq olmaq üçün Nizamnamə Təşkilat və ona üzv olan dövlətlər üzərinə bir sıra öhdəlikləri həyata keçirmək vəzifəsi qoyur. Nizamnamənin 55-ci maddəsinə görə BMT “irqinə, dilinə və dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verir”. Məhz insan

hüquqlarının beynəlxalq səviyyədə müdafiəsi ideyasını özündə əks etdirən ilk rəsmi beynəlxalq hüquqi akt BMT Nizamnaməsi hesab olunur.

BMT Nizamnaməsinə, əsasən, insan hüquqlarına hörmət prinsipi ümumi formada qeyd olunsa da həmin vaxtdan etibarən, beynəlxalq birlik öz səylərini bu prinsipin daha da dəqiqləşməsi, həmçinin inkişafı istiqamətində cəmləşdirmişdir. Belə səylərin ilk real nəticəsi kimi 10 dekabr 1948-ci il BMT Baş Assambleyasının 217(III) saylı qətnaməsi ilə əsas insan hüquqlarının "beynəlxalq kataloqunu" müəyyənləşdirən "Ümumdünya İnsan hüquqları Bəyannaməsi" qəbul olundu. Bəyannamədə vətəndaşın siyasi hüquqlardan əlavə, bəzi iqtisadi, sosial və mədəni hüquqları qeyd olunmaqla yanaşı, beynəlxalq insan hüquqlarının, həmçinin bütövlükdə beynəlxalq hüququn inkişafında əvəzsiz rol oynamışdır. Onun əsas müddəaları bir sıra konstitusiyalarda, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında, həmçinin digər qanunvericilik aktlarında da qeyd olunmuş, xeyli hissəsi milli məhkəmə qərarlarının əsasını təşkil etmişdir. 1966-cı ildə "Mülki və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"; "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" qəbul olundu və hər iki beynəlxalq akt 1976-cı ildə qüvvəyə mindi.

Hal-hazırkı dövrdə universal, həmçinin regional səviyyədə yüzə qədər beynəlxalq müqavilə qəbul edilmişdir. "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq pakt "və ona əlavə olunmuş iki Fakultativ Protokol; "İqtisadi ,sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"; "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"; "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"; "Qadınlar əleyhinə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"; "İşgəncələr və digər qəddar, qeyri-insani və insan ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"; "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"; "Amerika İnsan Hüquqları Konvensiya" və digərləri öz əhəmiyyətinə,həmçinin nəzarət mexanizmlərinin səmərəliliyi ilə fərqləndirilən beynəlxalq normativ aktlardır.

İnsan hüquqlarının pozulması anı həmin pozuntulardan zərərçəkmişlərin beynəlxalq öhdəliklərini pozan dövlətlərə qarşı iddia qaldırmaq, həmçinin hüquq pozuntularının qurbanı olan şəxslərə dəyən zərərin əvəzinin ödənilməsi,habelə digər hüquqi müdafiə vasitələrini nəzərdə tutmuş belə beynəlxalq müqavilələr universal və regional səviyyədə hüquqi əsası kimi çıxış edir. İnsan hüquqlarının pozulması ilə bağlı olaraq zərərin ödənilməsinin hüquqi əsasları yalnız beynəlxalq müqavilələrlə məhdudlaşdırılmır. Bəyannamələr, qətnamələr, beynəlxalq məhkəmə orqanlarının qərarları,tövsiyyələr,rəylər və digər qeyri-müqavilə mətnləri də vurulmuş zərərin ödənilməsi ilə əlaqədar hüquqi müdafiə vasitələri nəzərdə tutulur.

"Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın" 28-ci maddəsi əsasında yaradılmış İnsan hüquqları komitəsi üçün tələb olunan müdafiə vasitələrinin növlərini,insan hüquqları pozuntularının tiplərindən, həmçinin qurbanların vəziyyətindən asılı olaraq müəyyənləşdirilir. Komitə müəyyən edir ki, dövlət insan hüquqlarının pozulmasına qarşı mübarizə aparmaqla bərabər, qurbanlara maliyyə cəhətdən əvəz ödənilməsi ilə də məşğul olmalıdır, habelə eyni vaxtda pozuntuya yol verən təqsirkarlar üçün hüquqi məsuliyyətin müəyyən olunmasını öhdəsinə götürməlidir.

"İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1965-ci il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinə, əsasən, səmərəli müdafiə vasitələri üçün geniş təminatlar müəyyən olunur. Qeyd edilir ki, iştirakçı-dövlətlər onların yurisdiksiyası altında olan hər bir şəxsə Konvensiyada nəzərdə tutulan insan hüquqları, həmçinin əsas azadlıqların pozulmasına qəsd edən hər hansı bir irqi ayrı-seçkilik halında səlahiyyətli milli məhkəmələr və digər dövlət institutları

vasitəsi ilə səmərəli müdafiə vasitələrini, habelə belə ayrı-seçkilik nəticəsində vurulan hər hansı bir zərərə görə bu məhkəmələrə ədalətli və adekvat ödəmə və yaxud təminolunma haqqında iddia vermək hüququnu təmin etməlidirlər.

İnsan hüquqlarının pozulmasının nəticəsi olaraq vurulmuş zərərin ödənilməsi beynəlxalq hüquqda olduğu qaydada,dövlətdaxili hüquqda da eyni məqsədə xidmət edir.Buna görə də vurulan zərərin ödənilməsinin xüsusi elementləri həmişə olduğu kimi qanunla nizama salınır.Beləliklə,bütün hüquq sistemlərində yaranan ümumi prinsipin əsası ondan ibarətdir ki, kompensasiyaedici ədalətin məqsədini əks etdirmək üçün  təqsirkarın səbəb olduğu zərərin əvəzini ödəmək öhdəliyi vardır. Öz növbəsində zərərçəkmişlər isə ona vurulan zərərə görə qanunla müəyyən olunmuş qaydada zərərin əvəzinin ödənilməsini tələb etmək, həmçinin heç bir gecikmə olmadan onu almaq hüququna sahibdir.

Analoji müddəalar “Qadınlara qarşı irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” 1979-cu il tarixli Konvensiyasında da əks olunur. Beləliklə, iştirakçı-dövlətlər qadınların hüquqlarının kişilərlə eyni əsasda hüquqi müdafiəsini müəyyən etmək, həmçinin  səlahiyyətli milli məhkəmələrin, digər dövlət orqanlarının köməyi ilə qadınların hər cür ayrı-seçkilik aktlarından səmərəli müdafiəsini təmin etmək öhdəliyini üzərinə götürürlər.

“İşgəncə və digər qəddar, qeyri-insani və yaxud insan ləyaqətini alçaldan rəftar və yaxud cəza əleyhinə” 1948-ci il tarixli BMT Konvensiyasının 14-cü maddəsində də işgəncə  qurbanları üçün müdafiə vasitələri, həmçinin kompensasiya müəyyən olunmuşdur. Hər bir iştirakçı dövlət, işgəncə qurbanlarının, reabilitasiya vasitələri də daxil edilməklə, əvəzli ödənişin alınmasını, həmçinin ədalətli, adekvat formada kompensasiya hüququna  malik olmasını öz hüquqi sistemində təmin etməlidir. Qurbanlar işgəncənin nəticəsi olaraq öldükdə, kompensasiya hüququ onun himayəsində olan şəxslərə  verilir.

1988-ci ildə qəbul olunmuş “Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statu” hüquq müdafiə vasitələrinin inkişafı  ilə əlaqədar qəbul olunan yeni beynəlxalq aktdır. Roma Statunun 75-ci maddəsinə, əsasən, məhkəmə zərərçəkmiş şəxsə münasibətdə retitusiya, kompensasiya və rebilitasiya da daxil olunmaqla, dəyən ziyanın ödənilməsi ilə əlaqədar pirinsiplər müəyyənləşdirilir. İnsan hüquqlarının pozulmasına görə zərərin ödənilməsini   nəzərdə tutan müddəa BMT-nin “Korrupsiya qarşı mübarizə haqqında” 2003-cü il tarixli Konvensiyasında da öz əksini tapmışdır. Həmin konvensiyanın 35-ci maddəsinə əsasən demək olar ki, hər bir iştirakçı-dövlət özünün daxil olan qanunvericiliyin prinsiplərinin tələb etdiyi qaydalara uyğun olaraq, hər hansı korrupsiya əməlinin nəticəsi olaraq vurulan zərərə görə hüquqi və yaxud fiziki şəxslərin kompensasiya almaqları üçün bu zərərə görə hüquqi şəxslərə münasibətdə məhkəmə icraatının həyata keçirilməsinin təmin olunmasına aid tədbirlər görməlidir.

Uşaq hüquqları sahəsində Konvensiyaya uyğun olaraq “Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasina dair” 2000-ci il tarixində qəbul olunmuş Fakultativ Protokolun 9-cu maddəsinin 4-cü bəndinə görə, iştirakçı dövlətlərin üzərinə bu Protokolda qeyd olunan cinayətlərin qurbanları olan uşaqların ayrı-seçkilik olmadan, hüquqi məsuliyyət daşıyan şəxslərdən isə çəkdikləri zərərlə bağlı kompensasiya almaq üçün  lazımi prosedurlardan istifadə imkanını təmin etmək kimi xüsusi öhdəlik qoyulmuşdur.

“Beynəlxalq hüquqa zidd əmələ görə dövlətlərin məsuliyyəti hüququnda maddələr layihəsinin” aktının 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqa zidd əməl nəticəsi ilə əlaqədar vurduğu ziyana görə tam ödəmə təmin olunmalıdır. Ziyan dövlətin beynəlxalq hüquqa zidd əməlinin nəticəsi olaraq vurulan hər hansı zərəri, istər maddi, istərsə də

mənəvi zərəri əhatə edir. Beynəlxalq hüquqa zidd əməlin nəticəsi olaraq vurulan zərərin təbiətindən asılı olaraq onu iki əsas növə ayırmaq olar: maddi zərər və mənəvi zərər. Maddi zərər dedikdə dövlətə, həmçinin onun vətəndaşlarının əmlakına və yaxud başqa maraqlarına vurulan zərər nəzərdə tutulur. Mənəvi zərər dedikdə isə insanlara əzab, həmçinin əziyyət vermək, onları təhqir etməklə əlaqədar vurulan zərər nəzərdə tutulur.

Azərbaycan Respublikasının XX əsrin son onilliyindən etibarən yeni iqtisadi sistemə keçidlə bağlı qədəm qoyması bütün sferalarda köklü dəyişikliklərlə müşayiət edildi. Hüquq iqtisadiyyatın məhsulu olmasa da, bu iki amil, çox sıx qarşılıqlı əlaqədədirlər, bu əlaqə isə müəyyən keçidin hüquqa da təsir etməsi istisna olunmur. Ancaq bazar iqtisadiyyatının hüquq sahələri içərisində ən əsaslı dəyişikliklər olan sahəsi mülki hüquqdur. Bütövlükdə götürüldükdə isə, hüquqda baş verən əsas dəyişiklik qərb ölkələrinin təcrübəsi mənimsənilməklə “İnsan hüquqları və onların təminatı” məsələsinin önə çəkilməsi, ictimai deyil, şəxsi mənafelərin təmin olunmasıdır. Beləliklə, bu iki amil, bütün ictimai, həmçinin sosial sistemdə insanın rolunu artırır və ona öz imkanlarını azad formada həyata keçirməyə imkan yaradır. İnsan hüquqların içərisində şəxsi hüquqlar mühüm əhəmiyyət kəsb edir. Şəxsi hüquqların sosial dəyəri, həmçinin onların müdafiəsi insanın cəmiyyətdə mövqeyini müəyyənləşdirməklə, həmçinin cəmiyyətin inkişaf səviyyəsini təşkil edir. Bu dəyərlər təkcə milli deyil, həm də beynəlxalq səciyyə daşıyır ki, 1948-ci ildə BMT-nin Baş Assambleyasının qəbul etdiyi “İnsan Hüquqları Bəyannaməsi”; 1966-cı ildə qəbul edilən “Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt” bunun ən bariz nümunəsidir. Şəxsi hüquqların kompleks tənzimlənməsindən mülki-hüquqi aspekti ayırmaq mühümdür. Bununla bağlı olaraq şəxsi hüquqların mülki-hüquqi tənzimlənməsi ilə bağlı olaraq nəzəriyyədə uzun zaman 2 yanaşma olmuşdur. Bu yanaşmalardan birinin tərəfdarı olan şəxslər uzun müddət fikirləşirdilər ki, mülki hüquq şəxsi hüquqları tənzimləməyərək, ancaq mühafizə edir.

İxtisaslaşan orqanlar tərəfindən qəbul edilən müqavilələr içərisində, nümunə olaraq, Beynəlxalq Əmək Təşkilatının qəbul etdiyi “Müstəqil ölkələrdə köklü və tayfa xalqlarına dair” 1989-cu il tarixli 169 saylı konvensiyası “zərərə görə ədalətli kompensasiya”, “pul və yaxud natura formasında kompensasiya” və onlara vurulan hər hansı zərər və yaxud ziyanla bağlı olaraq “tam kompensasiya” nəzərdə tutulur.

İnsan hüquqlarının pozulmasına görə zərərin ödənilməsinin beynəlxalq hüquqi əsasları regional xarakterli beynəlxalq müqavilələrdə də əks olunmuşdur. Regional müqavilələr içərisində “İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyası insan hüquqlarının qorunması üçün beynəlxalq məhkəmə yaradan, həmçinin insan hüquqlarının pozulmasına görə mühakimə icraatı nəzərdə tutan ilk, ən səmərəli sistemdir. İnsan hüquqları üzrə Avropa Məhkəməsi zərər vurulan tərəfə həm maddi, həm də mənəvi zərərə görə kompensasiyanın ödənilməsi üzrə mühakiməni də yerinə yetirir.

Avropa Konvensiyası pozulan insan hüquqlarının təmin olunmasına yönəlmiş hüquqi müdafiə vasitələrini özünün 13-cü maddəsində, “Ümumdünya İnsan Hüquqları Bəyənnaməsinin” 8-ci maddəsinə tam oxşar şəkildə müəyyən olunmuşdur. 13-cü maddəyə görə, bu konvensiyada təsbit olunan hüquq və azadlıqları pozulan hər bir şəxs, hətta bu pozuntu rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir. Genosid, aparteid, köləlik, habelə özbaşına həyatdan məhrum etmə, insanların zorakılıqla yoxa çıxarılması, zorakı yolla ölkədən çıxarma, işgəncə, irqi ayrı-seçkilik, uzun müddətli qanunsuz həbs, minimal məhkəmə təminatlarını pozma, qanunun retroaktiv tətbiqi bu kimi insan hüquqlarının kobud və sistematik pozuntularının qurbanlarının səmərəli hüquqi müdafiə vasitələrinə və ədalətli

kompensasiya hüququna malik olmaları, bir qayda olaraq, beynəlxalq adət hüquqi ilə müəyyən edilmişdir. İnsan hüquqlarının pozulmasına görə zərərin ödənilməsinin hüquqi əsasları təkcə beynəlxalq müqavilələr və beynəlxalq adət hüquqi ilə məhdudlaşmır. Bəyannamələr, qətnamələr, səlahiyyətli beynəlxalq məhkəmə orqanlarının qərarları və beynəlxalq hüququn digər köməkçi mənbələri də vurulmuş zərərin əvəzinin ödənlməsi ilə bağlı hüquqi müdafiə vasitələrinə müraciət imkanını nəzərdə tutur.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikası Ali Məhkəmənin Plenumu "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 3 noyabr 2008-ci il tarixli qərarı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/16647

2. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, San-Fransisko, Kaliforniya, ABŞ, 1945. [Elektron resurs]. URL: https://az.wikipedia.org/wiki/Birləşmiş_Millətlər_Təşkilatının_ Nizamnaməsi

3. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və ona əlavə olunan iki Fakultativ Protokol, 1966. [Elektron resurs]. URL: https://migration.gov.az/content/pdf/5acb034968016_ Mülki%20və%20siyasi%20hüquqlar%20haqqında%20Pakt.pdf

4. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, 1966. [Elektron resurs]. URL: https://migration.gov.az/content/pdf/5b5ffb2eb289b_İqtisadi%20sosial%20və%20 mədəni %20hüquqlar%20haqqında%20Beynəlxalq%20Pakt.pdf

5. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, 1965. [Elektron resurs]. URL: https://migration.gov.az/content/pdf/5acb15696665f_ İrqi%20ayriseçkilik.pdf

6. Qadınlar əleyhinə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya,1979. [Elektron resurs]. URL: https://www.coe.int/az/web/compass/convention-on-the-elimination-of-racism-and-discrimination

7. İşgəncələr və digər qəddar,qeyri-insani və insan ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya, 1948. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/16054

8. BMT-nin "Korrupsiya qarşı mübarizə haqqında" Konvensiyası, 2003. [Elektron resurs]. URL: https://www.un.org/ru/documents/decl_conv/conventions/corruption.shtml

9. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası,1950. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/1405

10. Amerika insan hüquqları Konvensiya,1950. [Elektron resurs]. URL: http://hrlibrary.umn.edu/russian/instree/Rzoas3con.html

11. Müstəqil ölkələrdə köklü və tayfa xalqlarına dair 1989-cu il tarixli 169 saylı Konvensiyası. [Elektron resurs]. URL: https://www.un.org/ru/documents/decl_ conv/conventions/iol169.shtml

12. "Uşaq alverinə,uşaq fahişəliyinə və uşaq pornoqrafiyasina dair" 2000-ci ildə qəbul edilmiş Fakultativ Protokol. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/1572

**Гасымзаде И. И.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.24-32**
**УДК: 342.7**

## Международно-правовые основы компенсации за нарушения прав человека

**Аннотация:** В сложившейся ситуации обеспечение и защита прав человека, которые являются важной и неотъемлемой частью общечеловеческой культуры, считается одной из главных глобальных проблем.

Согласно концепции международной защиты прав человека, государства должны обеспечивать международно-признанные права и свободы каждого человека в пределах своих полномочий. Не допускается правовое и произвольное вмешательство, а в случае нарушения – обеспечение справедливого возмещения причиненного вреда, а также обязательства по устранению всех иных негативных последствий нарушения.

**Ключевые слова:** права человека; материальный ущерб; моральный ущерб; судебная практика; честь; достоинство и деловая репутация; пытки; реституция; компенсация.

## Библиография

1. Постановление Пленума Верховного Суда Азербайджанской Республики «Об опыте применения судами законодательства о компенсации морального вреда» от 3 ноября 2008 года. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/16647 (на азерб. яз.).

2. Устав Организации Объединенных Наций. Сан-Франциско, Калифорния, США, 1945 г. [Электронный ресурс]. URL: https://az.wikipedia.org/wiki/Birləşmiş_Millətlər_ Təşkilatının_Nizamnaməsi (на азерб. яз.).

3. Международный пакт о гражданских и политических правах и два прилагаемых к нему Факультативных протокола 1966 года. [Электронный ресурс]. URL: https://migration. gov.az/content/pdf/5acb034968016_Mülki%20və%20siyasi%20hüquqlar%20haqqında%20Pakt.pdf (на азерб. яз.).

4. Международный пакт об экономических, социальных и культурных правах 1966 года. [Электронный ресурс]. URL: https://migration.gov.az/content/pdf/5acb034968016 _Mülki%20və%20siyasi%20hüquqlar% 20haqqında%20Pakt.pdf (на азерб. яз.).

5. Международная конвенция о ликвидации всех форм расовой дискриминации, 1965 г. [Электронный ресурс]. URL: https://migration.gov.az/content/pdf/5acb15696665f_İrqi%20 ayriseçkilik.pdf (на азерб. яз.).

6. Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин, 1979 г. [Электронный ресурс]. URL: https://www.coe.int/az/web/compass/convention-on-the-elimination-of-racism-and-discrimination (на азерб. яз.).

7. Конвенция против пыток и других жестоких, бесчеловечных или унижающих достоинство видов обращения и наказания 1948 года.[Электронный ресурс]. URL: https://e-qanun.az/framework/16054 (на азерб. яз.).

♦**Гасымзаде Илькнур Илькин кызы** - магистрант кафедры «Право» Национальной академии авиации (Азербайджан). E-mail: ilknur.agayeva@bk.ru

8. Конвенция ООН о борьбе с коррупцией, 2003 г.[Электронный ресурс]. URL: https://www.un.org/ru/documents/decl_conv/conventions/corruption.shtml

9. Европейская конвенция о защите прав человека и основных свобод, 1950 г. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/1405 (на азерб. яз.).

10. Американская конвенция о правах человека, 1950 г. [Электронный ресурс]. URL: http://hrlibrary.umn.edu/russian/instree/Rzoas3con.html

11. Конвенция О коренных народах и народах, ведущих племенной образ жизни, в независимых странах. № 169 от 1989 года. [Электронный ресурс]. URL: https://www.un.org/ru/documents/decl_conv/conventions/iol169.shtml

12. Факультативный протокол о торговле детьми, детской проституции и детской порнографии, принятый в 2000 году. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/1572 (на азерб. яз.).